Şəfafflıq Azərbaycan

# PRESS RELİZ

Bu gün Azərbaycanın korrupsiyaya məruz qalan ölkələr arasında ilk yerlərdən birini tutması heç kəsə gizli deyildir. Korrupsiyanın ən çox yayıldığı sahələrdən biri isə təhsil sistemidir. Təhsil sistemində korrupsiyanın yayılması dairəsini isə bir neçə istiqamətə bölmək olar. Bunlardan ən sadə, lakin ən vacib olanı isə ali və orta təhsil məktəblərində müəllimlərin tələbə və şagirdlərdən rüşvət almasıdır. Maraqlı burasıdır ki, bu gün nə müəllimlər, nə də şagird və tələbələrin valideynləri bu gün verdikləri rüşvətlə öz gələcəklərini təhlükəyə atdıqlarını düşünmürlər və ya sadəcə bu məsuliyyətdən boyun qaçırırlar. Əslində isə bu gün rüşvət verərək əldə edilən "nailiyyətlər"in gələcəkdə törədəcəyi fəlakətlər isə göz qabağındadır.

Bu ilin payızında Azərbaycan özünün müstəqilliyini qeyd edəcək. Bu həm də Azərbaycan təhsil sisteminin iflic vəziyyətinə düşməsinin 13-cü ili olacaq. Rəsmi şəxslərin dili ilə desək bunun səbəbləri arasında əhalinin sosial vəziyyətinin aşağı səviyyədə olması, ölkənin müharibə şəraitində yaşaması əsas rol oynamaqdadır. İkinci faktorun törədə biləcəyi fəsadlar haqqında mübahisə etməyə dəyər, ən azı ona görə ki, artıq səkkiz ildir ki, Azərbaycan faktiki olaraq aktiv müharibə şəraitində yaşmır. Məhz bu faktdan bizim rəsmilərimiz xarici investorları cəlb etmək üçün istifadə edirlər. Birinci faktora gəldikdə isə onun təhsil və digər sahələrə vuduğu zərbənin gücü danılmaz dərəcədə doğrudur, lakin elə bu faktorun da meydana gəlməsində digər bir səbəb vardır ki, zənnimizcə ölkənin bütün bəlalarının səbəbi də məhz elə bu amildir. Bu amilin isə ancaq bir adı var KORRUPSİYA.

Artıq 12 ildən artıqdır ki, Azərbaycan təhsil sistemində korrupsiyanın qida mənbəyi olan rüşvət baş alıb getməkdədir. Azərbaycanın orta ümumtəhsil məktəblərində isə rüşvətin alınması üçün artıq müxtəlif üsullar kəşf edilmişdir. Bunlardan ən məşhurları sırasına isə məktəbin və ya sinif otağının təmiri, müəllimin ad günü, əlifba bayramı, qışda sinif otağını qızdırmaq üçün hər il təzə qzıdırıcıların alınması, müəllimlər gün, Səkkiz Mart Qadınlar günü və s. günlərin qeyd olunması üçün şagirdlərin valideynləri tərəfindən "öz xoşuna verilən ianələrdir." Onların arasında isə ən nəzərə çarpanı isə Səkiz Mart qadınlar günü münasibətilə yığılan pullardır. Əvvəllər bu pulları müəllimlərə hədiyyə almaq üçün istiufadə edirdilərsə indi "pul ən məsləhətlisidir" deyərək bağlı zərfdə onun üçün yığılan pulu verirlər.

Bəzi evlərdə isə artıq indidən valideynlər maaş alan kimi həmin "bayrama" hazırlıq görürlər. Bu bayram üçün vəsaiti isə adətən ya valideynlər şurasının sədri (qeyd edək ki, sədr seçilərkən də məhz onun bu "istedadı" nəzərə alınır) və ya sinif rəhbəri şəxsən toplayır.  Pul verən şagirdlər müəllimənin ən sevimlisinə çevirildiyi halda, nədənsə pul verməyən şagird təkcə müəllimələrinin deyil eyni zamanda öz şagird yoladşlarının da arasında ən sevilməz şəxsə çevirilir.

Bu halın Bakının, hətta Azərbaycanın əksər məktəblərində olması isə danılmaz faktdır. Onsuz da bu hala etiraz edənlərə artıq cəmiyyətimizdə bir mənalı şəkildə yanaşmırlar. Ona görə də biz də məsləni dərinləşdirmək fikrində deylik. Sadəcə bir faktı demək istəyirik, bu gün təkcə Bakı şəhərində 500 min şagird təhsil alır və nəzərə alsaq ki, onların ən azı yarısı bu bayrama ən azı otuz min manat pul verir, onda bəlli olar ki, bu bayram zamanı Azərbaycanın orta məktəblərində dövr edən rüşvət ən azı 15 milyard manat pul edir ki, bu da təxminən 3 milyon ABŞ dolları edir. Nəzərə alsaq ki, belə bayramlar ildə heç

olmazsa üç dəfə olur onda Azərbaycan orta ümüumtəhsil məktəblərində rüşvətin bir illik dövriyyəsinin 10 milyon ABŞ dollarına yaxın olmasının şahidi olarıq.

Sonra deyirik uçaqlar bizim gələcəyimizdir, indi fikirləşin ki, hələ orta məktəb partası arxasında əyləşən şagird özü də hiss etmədən bu qədər iri miqyaslı rüşvət oyununun içtirakmısına çevirilirsə, o zaman böyüyəndən sonra onun işytirak edəcəyi rüşvət dövriyyəsinin miqyasını hesablamağı sizin ixtiyarınıza buraxırıq.

*P.S. Unutmayın bu bizim vətənimizin gələcəyidir!*


Şəfafflıq Azərbaycan

e-mail : transpaz@azeronline.com
url: www.transparency-az.org